# *Ceyhun BAYRAMOV:* "Həmrəyliyimiz, dəstəyimiz, dualarımız sizinlədir, qardaş Türkiyə!"

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğluna telefonla zəng edib.



AZƏRTAC xəbər verir ki, bu barədə Ceyhun Bayramov öz "Facebook" hesabında paylaşım edib.

Xarici İşlər naziri bildirib: "Qardaşım Mövlud Çavuşoğlu ilə telefon danışığında İzmir zəlzələsi nəticəsində həyatını itirənlərin ailə və yaxınlarına dərin hüznlə başsağlığı bildirdim, yaralılara Allahdan şəfa dilədim. Həmrəyliyimiz, dəstəyimiz, dualarımız sizinlədir, qardaş Türkiyə!"

Azərbaycan.- 2020.-1 noyabr.- S.3.